Əjdər Qiyaslı
iqtisadçı alim, şair

# BİZİM HƏRBİ DƏNİZÇİ

***Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı, Birinci Dərəcəli Kapitan Zaur Hümmətova ithaf edirəm.***

**Xəzərin övladıdır,
Bizim hərbi dənizçi.
Dalğalar qanadıdır.
Bizim hərbi dənizçi.**

**Keşikdə mətin durur,
Həm vüqardı, həm qürur.
Quşu gözündən vurur,
Bizim hərbi dənizçi.**

**Xəzərimin gözüdü,
Nurla dolu üzüdü.
Dalğaların özüdü,
Bizim hərbi dənizçi.**

**Dağ dözümlü bir ərdi,
Zəfər dolu hünərdi.
Çox igidlik göstərdi,
Bizim hərbi dənizçi.**

**Çox sınaqdan keçibdi,
Haqq yolunu seçibdi.
Vətən andı içibdi,
Bizim hərbi dənizçi.**

**Hər bir işdən halıdı,
Xəzərin qartalıdı.
İgidlik timsalıdı,
Bizim hərbi dənizçi.**

**Xoş məramlı uğurdu,
Çox etimad doğurdu.
Mərd komandan Zaurdu,-
Bizim hərbi dənizçi.**

Ədalət 2019.- 17 sentyabr.- S.6.